Iyul, 2012

# "Ü M İ D" SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

İNFORMASIYA BÜLLETENİ №2, 2012

## "Ümid" SİD "Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti"ni müvəffəqiyyətlə davam etdirir

**SEDA-nın şüarı:** *Regional inkişaf naminə vətəndaşların iştiraklılığının artırılması*

***SEDA-nın mesajları:***

*Əməkdaşlığın genişləndirilməsi*
*İqtisadi imkanların yaradılması*
*Bacarıqların artırılması*
*Vətəndaş cəmiyyətinin cəlbi*

2011-ci ilin oktyabr ayında ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və Azərbaycan Hökumətinin birgə maliyyəsi ilə Şərq-Qərb İdarəetmə İnstitutu, "Ümid" SİD İB və Qeyri-kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz (İCNL) tərəfindən həyata keçirilən SEDA layihəsinin əsas məqsədi İcmalar tərəfindən müəyyən olunan infrastruktur layihələrə dəstək vermək və proqramın əhatə etdiyi və ətraf regionlarda sosial-iqtisadi inkişaf prioritetlərini və proqramları müəyyənləşdirmək üçün tərəfdaşların iştirakını gücləndirməklə Azərbaycanda regionların sosial-iqtisadi inkişafına töhfə verməkdir.

Layihə barədə məlumatın verilməsi və yeni icmaların layihəyə cəlb olunması məqsədi ilə Beyləqan RİH-də görüş keçirilmiş və 40 (37 Bələdiyyə) icmaya dəvət məktubu paylanmışdır ki, bu icmalardan da 28-i öz maraq məktublarını təqdim etmişlər. Maraq məktubları təqdim etmiş icmalar təhlil edilərək məlumat bazası yaradılmış və layihədə göstərilmiş kriteriyalar nəzərə alınmaqla qısa siyahı hazırlanmışdır. Qısa siyahıya salınmış icmalarda araşdırmalar aparılmış və icmalar haqqında qısa məlumat hazırlanmışdır. Beyləqan və Xaçmaz rayonları üzrə maraq məktubu təqdim etmiş yeni icmaların seçimi məqsədilə, "Ümid" SİD İB-nin Baş ofisində iclas keçirilmişdir. İclasda icmaların seçim meyarlarına uyğun olaraq Beyləqan rayonunun 3 icması (Aşağı Çəmənli, Aşıqalılar və İmamverdili) və Xaçmaz rayonunun 3 icması (Çarxı, Ağçay və Arzu) SEDA layihəsində əməkdaşlıq üçün ilkin olaraq seçilmişdir. Xaçmaz rayonu üzrə qısa siyahıya salınmış digər 2 icmanın (Pirquluoba və Müzəffəroba) isə araşdırılması məqsədəuyğun hesab edilmişdir.

***Layihə komandasının bacarıqlarının artırılması məqsədi ilə 5-6 aprel tarixlərində "Ümid"-in Baş ofisində ŞQİİ-nun İctimai Vəkillik Bacarıqlarının Qiymətləndirilməsi üzrə eksperti, xanım Nikol Farnsvort tərəfindən SEDA komandasına Kommunikasiya, uğur hekayəsi və fotojurnalistika mövzuları üzrə təlim verilmişdir. Təlimlərdə SEDA layihəsi zamanı hədəf icmalarda həyata keçirələcək layihələr zamanı daha uğurlu foto şəkillərin çəkilməsi və müvəffəqiyyətli uğur hekayələrinin yazılması qaydaları haqqında iştirakçılara ətraflı məlumatlar verilmişdir***



*Kommunikasiya, uğur hekayəsi və fotojurnalistika mövzuları üzrə təlim*

SEDA layihəsində əməkdaşlıq ediləcək 5 səfərbər olunmuş icmada (Əhmədabad, Oruclu, Aşağı Zeyid, Zərdabi və Şahnəzərli) sosial iqtisadi araşdırma, icmalarda mövcud vəziyyətin və ilkin layihə fəaliyyıtlərinin müzakirə edilməsi məqsədi ilə 5 görüş keçirilmişdir.

Sorğularda icmanın yaranma tarixi, əhalisi, məşğulluğu, və s. barədə statistik məlumatlar toplanmış, kənd təsərrüfatı, içməli su, səhiyyə və təhsil sahələrinin problemləri araşdırılmışdır. Araşdırmalar zamanı əldə edilən məlumatlar əsasında həmin icmaların ilkin pasportları və sosial-iqtisadi məlumat bazası hazırlanmışdır.

04 may 2012-ci il tarixində "Umid" SİD-nin Baş ofisində "İcma İşçiləri üçün təlimat" mövzusu üzrə seminar keçirilmişdir. Seminarda "Ümid" SİD İB-nin SEDA layihəsi və digər layihələrində çalışan əməkdaşları iştirak etmişlər. "Ümid" SİD iB-nin təcrübəli təlim mütəxəssisi tərəfindən aparılan seminarda SEDA layihəsi barədə qısa məlumat verilmiş, icma səfərbərliyi prosesinin mərhələləri, İcma Mütəxəsisləri üçün təlimatlar, icmada tövsiyyə olunmayan məqamlar, icmada ən çox rast gəlinən çətinliklər və s. bəndlər geniş müzakirə edilmişdir. Seminar zamanı əldə edilmiş yeni təklif və rəylər, həmçinin SEDA layihəsinin tələbləri nəzərə alınaraq işçi heyyət tərəfindən İcma Təlimat kitabının bir neçə bəndlərinə müvafiq əlavələr edilərək təkmilləşdirilmişdir. Həmçinin SEDA layihəsinin parametrlərinə uyğun olaraq, İİŞ üzvlərinə veriləcək I-II mərhələ üçün təlim materialları və təlimlərin idarə olunması üçün təlim prosesinin metodologiyası təkmilləşdirilmişdir.

## Bu sayımızda:

*"Ümid" SİD "Azərbaycanda social-iqtisadi inkişaf fəaliyyəti"ni müvəffəqiyyətlə davam etdirir* 1
*Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq-axtaranların bacarıqlarının artırılması* 2
*"Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək* 3
*"Gənclərin İqtisadi Bacarıqlarının Artırılması" layihəsi yekunlaşmışdır* 4
*Süd istehsalçılarının bazara çıxışının yaxşılaşdırılması südçülük sahəsinin inkişafına təkan verir* 5
*Coca-Cola Fondunun dəstəyi ilə məktəblərdə ekoloji tərbiyə* 6
*Açıq Cəmiyyət İnstitutu Yardım Fondu ilə əməkdaşlıq uğurla davam etdirilir* 6

# Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması

Azərbaycanda müvəqqəti sığınacaq tapan Çeçenistan, Əfqanıstan, İran, İraq, Pakistan və digər ölkələrin vətəndaşları əsasən Bakı və respublikanın digər yerlərində yaşasalar da, daimi yaşayış yerləri yoxdur. Ancaq az bir miqdarı iş taparaq öz ailəsinə dəstək ola bilir. Tapılan iş yerləri də daimi olmur. BMT QAK-nın dəstəyi ilə həyata keçirilən “Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması üçün peşə təlimi” layihəsinin əsas məqsədi hədəf qrupun iqtisadi imkanlarını yaxşılaşdırmaqdır. Bu məqsədə aşağıdakı fəaliyyət istiqamətləri vasitəsilə nail olunur:

*Layihə məqsədlərinə nail olmaq üçün layihə qarşısında aşağıdakı vəzifələr durur:*
*- Qaçqın və sığınacaq axtaran gəncləri Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, onların bilik və peşə bacarıqlarını artırmaq*
*- Qaçqın və sığınacaq axtaranları QQGM-nin təlim mərkəzində təşkil olunan kompüter kurslarına cəlb etməklə, onların kompüter, o cümlədən internetdən istifadə etmək bacarıqlarını artırmaq*
*- Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsini təşkil etmək.*

**1) Qaçqın və sığınacaq axtaran gəncləri Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, onların bilik və peşə bacarıqlarının artırılması :**



*Qadın-bərbəri sahəsində təlim*

Layihə üzrə bu ildə 25 nəfərin UYŞH kurslarına cəlb edilməsi nəzərdə tutulmuşdur.
2012-ci ilin 2-ci rübü ərzində də, UYŞH komponentinin mahiyyəti, məqsədi və əsas yanaşma prinsipləri barədə məlumatların verilməsi davam etdirilmişdir.
Nəticə etibarilə, ikinci rübdə UYŞH kurslarına müraciətlərin sayı 21 olmuşdur. Bu dəfə əsas maraq qadın bərbəri, vizaj və kosmetologiya sahələrinə istiqamətləndirilmiş və müraciət edənlərin əksəriyyəti qadınlar olmuşdur. UYŞH komponentinin seçım meyarlarına müvafiq olaraq aprel ayından başlayaraq 15 nəfər gənc 4 peşə sahəsi üzrə kurslara cəlb edilmişdir. Bu rübdə kursları başa vuranlar da var idi. Müdavimlərin sayı 8, onların 6-ı qız, 2-i isə oğlan olmuşdur. Hər bir müdavim kursu müvəffəqiyyətlə başa vurduğu üçün sertifikatla təltif edilmişdir. Hazırda kurslara davam edənlərin sayı 11 nəfərdir. Müraciət edənlərin də sayı artmaqdadır.

**2) <u>Qaçqın və sığınacaq axtaranların kompüter, o cümlədən internetdən istifadə etmək üzrə bacarıqlarının artırılması</u>**

Müraciət edənlərin təkliflərini nəzərə alaraq, bu rübdən başlayaraq Corel Draw dizayn proqramı üzrə kurslar təşkil olunmuş, eyni zamanda MS Office və Adobe Photoshop proqramları üzrə kurslar davam etdirilmişdir.
Cari rüb ərzində, kompüter təlimlərinə müraciətlərin sayı 51 nəfər olmuş, o cümlədən MS Office 2007 proqramı üzrə 24, Photoshop proqramı üzrə 10, Corel Draw proqramı üzrə 17 nəfər müraciət etmişdir.
İnternetdən istifadə etmək məqsədilə, 137 nəfər kompüter mərkəzinin imkanlarından istifadə etmişdir. Hər zaman olduğu kimi, internet istifadəçilərinə onların marağına uyğun gələn yeni saytlar barədə məlumatlar, yeni istifadəçilərə internet ünvanı açmaq, saytlarda qeydiyyatdan keçmək yolları göstərilmişdir.
Ikinci rüb ərzində, kompüter təlim mərkəzində təşkil olunan kurslara 31 nəfər cəlb edilmiş, sonda 13 nəfər kompüter kurslarını uğurla başa vurmuşdur.
Ümumilikdə, layihə ilinin başlanğıcından kompüter kurslarına cəlb edilənlərin sayı 41 nəfər olmuşdur.



*Ofisdə internet xidmətindən istifadə*

**3) <u>Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsinin təşkili</u>**

Bu rüb ərzində, əsas vəzifələr uşaqların beynəlxalq düşərgəyə seçilməsi, onların hazırlanması və düşərgənin təşkili olmuşdur. Seçim icma liderlərinin və eləcə də, fəal valideynlərin iştirakı ilə aparılmışdır. Secimdə əsasən uşaqların komanda şəklində ölkələrini təmsil etmək, öz mədəniyyətini, adət-ənənələrini, musiqisini təqdim etmək bacarığı və rus dilində danışmaqları nəzərə alınmışdır. Nəticə olaraq, düşərgədə iştirak etmək üçün 8 Əfqanıstan uşaqları seçilmişdir. Düşərgəyə hazırlıq olaraq, QQGM-də məşğələlər təşkil edilmişdir. Məşğələlər Əfqanıstan icmasının lideri X.Xoroşan, təçrübəli valideynlər və düşərgəyə seçilən təlimçilərin iştirakı ilə aparılmışdır. İyun ayının 18-də təşkil edilmiş düşərgə 10 gün davam etmişdir.

Ötən ildə fəaliyyətə başlamış ATG qrupu (Aphgan Technical Group) bu rübdə öz bacarığını təkmilləşdirmək məqsədilə yeniləşdirilmiş proqram üzrə təlimlərə başlamış və yeni yaradılacaq qrup üçün “Cyberlink Power Director 10” proqramı üzrə yeni tədris planı hazırlamışdı. Əlavə olaraq, qrup 20 iyunda keçiriləcək Dünya Qaçqın Günü üçün qısa videorolikin hazırlanmasını öhdəsinə götürmşüdür. Videorolikin ssenarisi BMT QAK, “Ümid” SİD, QQGM-nin əməkdaşları, icma liderlərin müştərək əməyi nəticəsində ərsəyə gəlmişdir. Qrupun üzvləri Bakıda yaşayan bir neçə qaçqın ailələrindən müsahibə götürmüş, qaçqınlara xidmət edən poliklinikaya gedərək oradakı xidmətlərin şəklini çəkmiş, Mərkəzdəki fəaliyyətləri, UYŞH və kompüter kurslarının şəkillərini çəkmiş və əldə etdikləri materialları, o cümlədən internetdən götürdükləri materialları videorolik hazrlanmasında istifadə etmişdirlər. Videorolikin son variantı BMT QAK tərəfindən təsdiq edilmiş və 20 iyunda Bakıda muğam mərkəzində Dünya Qaçqın Gününə həsr olunmuş tədbirdə nümayış olunmuşdur.

*Gənclərin sevincinə böyük səbəb kimi Bakıda keçirilən Avrovijn mahnı müsabiqəsinə iştirak etmək üçün Norveçi təmsil edən Tujinin Qadın Mərkəzinə gəlməsi olmuşdur. Gənclərlə Tuji arasında tez bir zamanda çox isti dostluq münasibətləri yaranmışdır. Tuji gəncləri maraqlarından bütün suallara cavab vermiş, özü barədə və təmsil etdiyi ölkə, onun adət və ənənələri, mədəniyyəti barədə maraqlı məlumatlar vermişdir.*

## Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək

UNHCR
The UN Refugee Agency

Ötən illərdə olduğu kimi, bu il də "Usta yanında şagird hazırlığı" komponenti üzrə layihə çox böyük uğurla davam etdirilir. Belə ki, hər il yüzlərlə gənc oğlan və qızlar təşkilatın dəstəyi ilə bir sənətkar kimi püxtələşib, əmək fəaliyyətlərinə başlayaraq biznes bacarıqlarını artırıb iqstisadi imkanlarını genişləndirirlər.

2012-ci ilin 6 ayı ərzində 28 icmadan ərizə verən 200 (175mk, 25 yerli, 111 qız, 89 oğlan) nəfərdən 15 (6 qız,9 oğlan) nəfəri peşə təlimi sahələrinə, 16 (12 qız,4 oğlan) nəfəri komputer təliminə cəlb edilmişlər. 2012-ci ilin 2-ci rübü ərzində layihə məqsədlərinə nail olmaq üçün fəaliyyətlər iki istiqamətdə həyata keçirilmişdir:

**1) MK gəncləri peşə təlimi kurslarına və biznes təlimlərinə cəlb etməklə onların gəlir və məşğulluq imkanlarının artırılması:**



*Mobil telefon təmiri sahəsində təlim*

Layihənin formatına uyğun olaraq, 2-ci rüb ərzində gənclərin müxtəlif sənətlərə olan ehtiyacları müəyyənləşdirilmiş, müasir tipli sex və salonlar araşdırılmış, seçilmiş sahələrlə müqavilə bağlanmış və daha 3 sahənin (Qadın dərzisi-3, Dəmirçi-rəngsaz-3, Mobil telefon-3) fəaliyyətinə başlanmışdır. Təlimlərin mükəmməl şəraitdə, müasir tələblərə uyğun formada keçirilməsi üçün may ayında ustaların şagirdlərlə işləmələri metodikasına dair ofisdə təlim keçirilmiş, təcrübəli ustalarla gənc ustalar arasında fikir mübadiləsi aparılmış və tədris proqramlarındakı bəzi mövzuların təkmilləşdirilməsinə dair tövsiyyələr nəzərə alınmışdır. Eyni zamanda, sahələr ilkin avadanlıq və materiallarla təmin olunmuş, mütəmadi monitor edilmişdir.

*Hər il yüzlərlə gənc oğlan və qızlar təşkilatın dəstəyi ilə bir sənətkar kimi hazırlanıb həyata sənətkar vəsiqəsi ilə buraxılır.Və bu yolla onlar yoxsulluğun daşını atıb müxtəlif sahələrdə öz bizneslərini qururlar.*

*Qarabağ müharibəsindən 20 il keçməsinə baxmayaraq insanlarımız hələ də o illərin ağrı-acısı ilə yaşayırlar. Belə ki,Qarabağda və ona yaxın regionlarda yaşayan əhali uzun illər boyu əzab-əziyyətlə tikib-qurduqları ata-baba ocaqlarından bir göz qırpımında qovuldular. İllər boyu zəhmətlə topladıqları əmlakları yerlə yeksan edildi, evlər yandırıldı, qocalar, körpələr öldürüldü. Bütün bu fəlakətləri görən və yaşayan həmyerlilərimiz, köçkünlük həyatı yaşamağa məcbur oldular. Milyon yarım qaçqın və köçkünlərimiz demək olar ki, Azərbaycanın bütün regionlarına səpələndilər. Ölkədə həm siyasi, həm də iqtisadi vəziyyət son dərəcə ağır idi.İ şsizlik, yoxsulluq, aclıq, xəstəlik bütün ölkəni bürümüşdü. Gənclər təhsildən aralanmışdılar. Respublikanın belə bir ağır vəziyyətində, BMT QAK qaçqın və köçkünlərimizə maddi və mənəvi dayaq durmaq iqtidarında olduğunu bildirdi və bu günə kimi də öz humanist addımını atmaqda davam edir.*

**2) MK gənclərin kompüter bacarıqlarının artırılması, faydalananların bilik və bacarıqları üzrə məlumat bazasının hazırlanması:**

Peşə təlimi sahələri ilə yanaşı, kompüter təlimi sahəsinə verilmiş ərizələrin çoxluğu indiki yeniyetmə və gənc nəslin bu sahəyə olan marağının və tələbatının artmasının müsbət göstəricisidir. Ötən illərlə müqayisədə bu il ərizələrin sayı günbəgün artmaqdadır. Əvvəllər kompüter təliminə yalnız gənc və yeniyetmələr ərizə verirdilərsə, bu il ərizələrin arasında orta nəslin nümayəndələri də çoxluq təşkil edir. Təşkilatımız tərəfindən verilən kompüter təlimlərinin uğurlu nəticəsidir ki, təlimləri başa vuraraq sertifikat alan bir çox gənclərimiz müxtəlif yerlərdə işlə təmin olunmuşlar. Əlbəttə ki, bu da əhali arasında bu sahəyə marağın artmasına səbəb olmuşdur. Hətta icmalardan ərizə verənlərin arasında kompüter bilgilərinə yiyələnmək istəyində olan bir çox orta məktəb müəllimləri də var. 2012-ci ilin yanvar-iyun ayları ərzində MS Office (MS Word, Excel, Power Point,Outlook) və Adobe Photoshop proqramları üzrə həftədə 2 dəfə 1,5 saat olmaqla "Ümid" SİD İB-nin ofisində təşkil edilmiş kompüter təliminə 24 (19-qız,5 oğlan) nəfər gənc və yeniyetmələr cəlb olunmuşlar. Onlardan 16 (12 qız,4 oğlan) nəfəri 2 aylıq kursu müvəffəqiyyətlə başa vuraraq sertifikatlar almışlar. Daha 9 nəfər isə iyul ayının 1-dən etibarən təlimlərə başlayacaqlar.



*"Ümid" SİD İB-nin Sumqayıt ofisində MK gənclər üçün kompüter təlimi*

Əsrimiz kompüter əsri olduğu üçün indiki gənc nəsli internetsiz təsəvvür etmək qeyri mümkündür.Məhz buna görə də təşkilatımız tərəfindən gənclər üçün pulsuz internet xidmətindən istifadə etmək şəraiti də yaradılmışdır. Bununla da "Ümid" SİD gənclərin dünya görüşünün artmasına və özlərini bu sahədə daha da inkişaf etdirməsinə şərait yaratmışdır. Bu müddət ərzində, 81 nəfər məcburi köçkün və yerli aztəminatlı gənclər "Ümid" SİD İB-nin ofisində təşkil edilmiş pulsuz internet xidmətlərindən faydalanmışlar.

## *Inkişaf yolunda xüsusi təhlükə - Qaçqınlar və Məcburi Köçkünlər*

*"Azərbaycan Respublikasında İnsan Haqqında Hesabat –2002"*

# “Gənclərin İqtisadi Bacarıqlarının Artırılması” layihəsi yekunlaşmışdır

BP və Tərafdaşlarının maliyyə dəstəyi ilə həyata keçirilən “Gənclərin İqtisadi Bacarıqlarının Artırılması” layihəsi icrasını uğurla yekunlaşdırmışdır.

Usta Yanında Şagird Hazırlığı kurslarını bitirmiş biznes qurmaq istəyən 20 nəfərə 6668 AZN dəyərində Möhkəm Başlanğıclı İqtisadi Layihə (MBİL) qrantı verilmişdir. MBİL qrantlarının ümumi dəyəri 15214 AZN təşkil etmişdir. Qrant almış gənclərin aylıq orta gəlirləri 150-200 təşkil edir.

Birləşmiş Büdcə Metodu vasitəsilə 4 İcma Xidmət Mərkəzinin tikintisi layihəsi həyata keçirilmişdir. Şəmkir rayon Sarıtəpə, Dəllər Daşbulaq, Samux rayon Yuxarı Ağasibəyli, Goranboy rayon Faxralı və Qaradağ rayonu Ümid icmalarındakı tikinitisi icmalar tərəfindən aparılan icma xidmət mərkəzlərii istifadəyə verilmişdir.



*Samux rayonu Yuxarı Ağasıbəyli İcmasında İXM-nın tikintisi*

“İcma Xidmət Mərkəzinin Tikintisi” layihələrinin icma tərəfindən birləşmiş büdcə metodu ilə inşa olunması icma birliyinə, daxili resurslardan daha səmərəli istifadə etmək bacarıqlarının artırılmasına, Bələdiyyə, İcra Nümayəndəliyi, İcma Qrupu, Biznes strukturları və yerli hakimiyyət orqanları ilə əlaqələrin möhkəmləndirilməsinə səbəb olmuşdur. Eyni zamanda, Xidmət Mərkəzlərinin tikintisində əsas amillərdən biri də UYŞH kurslarını başa vurmuş gənclərin iş yerləri ilə təmin olunmasıdır. Hər bir xidmət mərkəzində yerləşdiyi icmanın ehtiyaclarına uyğun olan müxtəlif xidmət sahələri yaradılmışdır.



*Veyisli İXM-də internet klub*

Şəmkir rayon Sarıtəpə və Goranboy rayon Faxralı icmalarında tikilib istifadəyə verilmiş mərkəzlərdə icma qrupu otaqları, kişi və qadın bərbəri salonları və kompüter xidmətləri sahələri sakinlərə xidmət göstərəcəkdir. Şəmkir şəhərinin ən müasir salonlarında kurs keçmiş kişi və qadın bərbəri peşələri üzrə gənclər artıq icmada istifadəyə verilmiş standartlara cavab verən salonlarda əhaliyə yüksək keyfiyyətli xidmətlər göstərəcəklər.

Şəmkir rayon Dəllər Daşbulaq və Samux rayon Yuxarı Ağasıbəyli icmalarında yerləşən İcma Xidmət Mərkəzlərində isə bələdiyyə otağı, icra nümayəndəliyi, icma otağı ilə yanaşı bərbər salonları, dərzi və kompüter xidmətləri sahəsi fəaliyyət göstərəcəkdir. İcra Nümayəndəliyi, İcma Qrupu və bələdiyyənin eyni mərkəzdə işləməsi gələcəkdə icma problemlərinin həllində birgə iş birliyinin daimi fəaliyyətinə səbəb olacaqdır. Eyni zamanda, kompüter salonunun fəaliyyəti isə işçilərin kompüter biliklərinin artırılmasına dəstək olacaqdır. Kompüter otağının tam olaraq avadalıqla təchiz olunması həmin binada fəaliyyət göstərən qurumların işlərinin intensiv aparılmasına dəstək olacaqdır. Əhali indiyədək icmada mövcud olmayan kompüter xidmətlərinin bütün növlərindən (internet, aviabiletlərin alınması, kommunal ödənişlər, sahibkarların vergi hesabatlarının göndərilməsi, verilmiş printerin köməyi ilə foto-skaner-rəngli sürət çıxarma xidmətləri və s.) asanlıqla istifadə edəcəklər.

Yaradılan Mərkəzlər texnoloji avadanlıqlarla təchizat, enerji effektivliyi, enerjinin saxlanması, sağlam həyat tərzi və dizayn baxımından müasir tələblərə cavab verdiyindən icmalarda xidmət sahələri arasında rəqabət hissini artıracaq və gələcəkdə yaradılacaq hər sahənin müasir tələblərə uyğun qurulacağına səbəb olacaqdır. Bu nöqteyi-nəzərdən, hədəf icmalar gələcəkdə qonşu icmalar və onların biznesləri üçün yaxşı bir nümunə olacaqlar.



*Qaynaq sahəsi - gənc ustalara dəstək*

## Süd istehsalçılarının Bazara çıxışının yaxşılaşdırılması südçülük sahəsinin inkişafına təkan verir

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və BP və Tərəfdaşlarının birgə maliyyəsi ilə həyata keçirilən "Süd və Süd Məhsulları İstehsalçılarına İcma Əsaslı Dəstək" layihəsi çərçivəsində maarifləndirmə, Dəstək Mərkəzləri (DM) ilə əlaqələndirmə, Süd Toplama Mərkəzlərinin (STM) qurulması və digər fəaliyyətlər davam etdirilmişdir.

Süd istehsalçılarının biznes və bazar biliklərinin artırılması məqsədi ilə rüb ərzində hədəf icmalarda "Uçotun aparılması", "Qiymət və onun müəyyənləşdirilməsi", "STM-də qurğu və avadanlıqların idarə olunması" mövzularında 5 təlim keçirilmişdir. Təlimlərdə 19 nəfəri qadın olmaqla 53 nəfər iştirak etmişdir.



Qarabucaq STM-nin işçiləri üçün təlim

Seyidli icmasında süd istehsalçılarının təşəbbüsü ilə heyvanların saxlanma şəraitinin təşkili ilə əlaqədar Norveç Humanitar Müəssisəsinin (NHM) nümayəndəsi və mal-qaranın bəslənməsi üçün yemə olan ehtiyacların ödənilməsi üçün "Azəryem" yem istehsalı zavodunun nümayəndələri ilə görüş keçirilmişdir. Görüşdə süd istehsalçılarının kiçik ölçülü müasir ferma binalarının layihələri ilə təmin olunması və südlük yem nümunələrinin icmada sınaqdan keçirilməsinə dair razılıq əldə olunmuşdur.

Aparılmış maarifləndirmə və digər fəaliyyətlər nəticəsində, Qarabucaq və Bərgüşad icmalarında da istehsal olunan və satılan südün mikrobioloji tərkibi yaxşılaşmışdır.
Hədəf icmalarda STM-nin quraşdırılması işləri davam etdirilmişdir. Kürdəmir rayon Qarabucaq və Ucar rayon Bərgüşad icmalarında STM-nin tikinti quraşdırma işləri başa çatdırılmışdır.

Layihə çərçivəsində Şəmkir rayon Sarıtəpə icmasında qurulmuş STM-nin açılış mərasimi keçirilmişdir. Tədbirdə USAİD-nin məsul nümayəndələri, BP-nin nümayəndəsi, RİH Başçısının müavini, "Ümid" SİD-in məsul şəxsləri, Sarıtəpə kənd İcra nümayəndəsi, Yerli bələdiyyə sədri, "Biləsuvaraqro" MMC-nin nümayəndəsi, digər hədəf icmaların nümayəndələri, Sarıtəpə icma üzvləri və qonşu icmalarda yaşayan süd istehsalçıları və kiçik fermerlər iştirak etmişlər.

Sarıtəpə İcma lideri Namaz Bağırov qonaqları salamlayaraq İcma üzvlərini layihənin açılışı münasibətilə təbrik etdi, icma adından layihənin həyata keçirilməsində dəstək vermiş bütün qurum və şəxslərə oz minnətdarlıqlarını bildirdi.



Sarıtəpə icmasında
Süd Toplama Məntəqəsinin açılışı

Goranboy rayon Veyisli icmasında qurulmş STM-nin Quşçular icmasına köçürülməsi, Ucar rayon Bərgüşad icmasında qurulması nəzərdə tutulan STM-nin isə Kürdəmir rayon Karrar qəsəbə icmasında qurulması qərara alınmışdır.

Layihədə nəzərdə tutulmuş dəyişikliklərlə əlaqədar, Goranboy və Kürdəmir rayon icra hakimiyyətlərinə məlumat məktubları verilmiş, Quşçular və Karrar qəsəbə icmalarına isə əməkdaşlığa dair məktublar təqdim olunmuşdur. Hər iki icmada layihənin həyata keçirilməsi üçün icma və bələdiyyə ilə "Ümid" SİD İB arasında Əməkdaşlığa dair Memorandum imzalanmışdır. Layihə prosesində yerinə yetirilmiş fəaliyyətlər nəticəsində artıq 6 icma SEM-i olan "Biləsuvaraqro" MMC və "Azərsun" Holdinq KSZ ilə əməkdaşlığa başlamışlar. Təqribən gündəlik olaraq 6 icmada 400-dən çox təsərrüfat SEM-nə 6000 litrdən çox süd sataraq 1800 manatdan çox gəlir əldə edirlər. Bu da süd satan hər bir təsərrüfata gündəlik orta hesabla 5manata yaxın vəsait daxil olmasına və öz növbəsində həmin təsərrüfatların yaşayış səviyyələrinin yaxşılaşmasına gətirib çıxarır.

*Əhalinin süd və süd məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi üzrə həyata keçirilən siyasət tədbirləri nəticəsində süd sektorunda yeni bazar iştirakçıları yarandı. Belə ki, Sahibkarlığın İnkişafına Yardım fondu tərəfindən verilən güzəştli kreditlərlə ərazilər üzrə yeni süd emalı müəssisələri fəaliyyətə başlayıb. Bu müəssisələr tam həcmdə xam südə olan tələbatını yerli istehsal hesabına ödəyir.*

## Coca-Cola Fondunun dəstəyi ilə məktəblərdə ekoloji tərbiyə

"Ümid" SİD İB Coca-Cola Fondunun maliyyə dəstəyi ilə ***"Məktəblərdə su və kanalizasiya sistemlərinin bərpası, ekoloji güşənin yaradılması"*** layihəsini 2012-ci ilin 2-ci rübü ərzində 3 komponent üzrə həyata keçirmişdir: 1) hökumət orqanları ilə iş; 2) məktəblərdə ekoloji maarifləndirmə tədbirlərinin həyata keçirilməsi; və 3) məktəblərdə təmir və tikinti işlərinin yerinə yetirilməsi.

Layihənin icrası ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və hədəf məktəblərinin yerləşdiyi rayonun İcra Hakimiyyətinə rəsmi məktublar göndərilmiş, layihənin məqsəd və vəzifələri barədə məlumat verilmiş və hədəf məktəblər dəqiqləşdirilmişdir. Binəqədi rayon İcra Hakimiyyəti Coca-cola Fondunun rayonun 297, 298, 300 və 301 saylı məktəblərində həyata keçirəcəyi layihəni alqışlamış və layihənin icrası zamanı lazımi dəstəyin veriləcəyini qeyd etmişlər.



Ekoloji guşənin yaradılmasında şagirdlərin iştirakı

Məktəblərdə ekoloji maarifləndirmə tədbirləri altında 6-9-cu sinif şagirdlərindən ibarət "Coca-Cola"nın dostları qrupları yaradılmışdır. Qrup üzvləri ətraf mühitin mühafizəsi üzrə maraqlı məlumatların daxil olduğu posterlər və bülletenlər hazırlamış, öz məqalələrini məktəbin divar qazetində yerləşdirmiş və Coca-Cola Fondu, onun yaranması haqqında məqalələr yazmışlar. Qrup üzvləri Ekoloji Guşələrin yaradılmasında fəal iştirak etmişlər. Məktəblərdə şagirdlərin ekoloji tərbiyəsi ilə bağlı iş aparılmışdır, belə ki, paylama materialları və bukletlər hazırlanmış və şagirdlər arasında yayılmışdır. Bundan başqa, məktəblərdə "Ekologiya və Ətraf mühit" mövzusunda təlimlər verilmişdir ki, bu təlimlərdə 32 qız və 35 oğlan olmaqla 65 şagird iştirak etmişdir.



Ekoloji maarifləndirmə üzrə təlim

Məktəblərdə təmir və bərpa işləri istiqamətində 4 məktəbdə ayaqyolları təmir olunmuş və məktəblərin mətbəxlərində su təmizləyici filterlər quraşdırılmışdır. Bu cür filterlərin quraşdırılması ilə yanaşı, şagirdlər təmiz içməlu su içməyin üstünlükləri və faydaları haqqında məlumatlandırılmışlar. Layihə məqsədlərindən biri olaraq, məktəblərdə Ekoloji Guşələr yaradılmışdır. Bu guşələrin yaradılmasına "Coca-Cola"nın dostları qruplarının üzvləri yaxından cəlb olunmuşlar. Layihənin icrası periodic olaraq icraçı təşkilat və donor tərəfindən monitor olunmuşdur.

## Açıq Cəmiyyət İnstitutu Yardım Fondu ilə əməkdaşlıq uğurla davam etdirilir

2008-ci ilin sonundan başlayaraq ACİ YF-nun maliyyə dəstəyi ilə Azərbaycanın da daxil olduğu "Qafqaz Təhsil Təşəbbüsü" çərçivəsində həssas uşaqların məruz qaldığı təhsil problemləri haqqında ictimai maarifləndirmə və sosial cəhətdən həssas uşaqların təhsil imkanlarının artırılması üzrə layihələr icra olunur. Bu layihələrin davamı olaraq, 2012-ci ilin yanvar ayından ACİ YF-nin maliyyə dəstəyi ilə "Qafqazda mədəniyyətlərarası əməkdaşlığa dəstək" və "Ümid" SİD İB-nin Məsləhətçi kimi çıxış etdiyi "Sabah Bugündən başlayır" layihələri icra olunmağa başlamışdır.

Beynəlxalq düşərgə "Qafqazda mədəniyyətlərarası əməkdaşlıq" proqramın iştirakçıları – "Ümid" SİD, "Buta" Humanitar Uşaq Fondu, "İnquşetiyanın müəllimlər və repetitorlar assosiasiyası" Regional İctimai təşkilatı və "Stimul" Çeçenistanın Regional İctimai təşkilatı tərəfindən təşkil edilmişdir. Düşərgəyə hər bir təşkilat 8 uşaq və 2 təlimçi cəlb etmişdir. Düşərgə İyun ayının 18-də başlayıb və həmin ayın 29-da başa çatmışdır.

Düşərgə zamanı uşaqlar biri-birindən maraqlı çıxışlar, təqdimatlar aparmışlar. Çıxışlara hətta həmin istirahət zonasında olan digər vətəndaşlar da böyük maraq göstərmişlər. Çox qısa bir zamanda beynəlxalq düşərgəyə gələn uşaqlar arasında mehriban və dostluq əlaqələri yaradılmışdır. Dİl probleminin olmaması bu prosesi daha da surətləndirmişdir.



Beynəlxalq yay düşərgəsi

Belə bir düşərgənin təşkili növbəti dəfə göstərir ki, müxtəlif mədəniyyətlərdən olan, öz adət-ənənələrini bilən uşaqların bir araya gəl məsi, biri-biri ilə qaynayıb qarışması, qarşı mədəniyyətə hörmətlə yanaşmaq və bu yolla onlarda köhnə stereotipləri dağıtmaq üçün əvəzolunmaz bir vasitədir.

**Baş ofis:**
**Bakı şəhəri, Ə.Cavad küç.-7A; Tel./ Faks: (+99412) 434 53 15; (+99412) 434 96 98**
**E-ünvan: office@umid-hsdm.com**

| Bakı sahə ofisi: | Sumqayıt sahə ofisi: | Gəncə regional ofis: |
|---|---|---|
| Nərimanov r-nu., Orucəliyev küç.- Q-46<br>Tel: (+99412) 437 82 39 | 6-cı mkr-n, C. Məmmədquluzadə küç.<br>Tel: (+99418) 642 55 18 | Süleyman Rəhimov küç.-30<br>Tel: (+99422) 57 48 62 |